*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (2) 2023*
https://doi.org/10.46868/atdd.2023.269

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received : 06.03.2023*
*Kabul tarihi |Accepted: 19.03 2023*
*Yayın tarihi |Published : 25.04.2023*

**Tofiq Mustafazadə**
https://orcid.org/0000-0001-7108-6348
*Professor, Azerbaijan National Academy of Sciences Bakihanov History Institute, Branch Manager, Azerbaijan,tofiq.mustafazade@ mail:ru*

**Fəridə Əliyeva**
https://orcid.org/0000-0002-3538-904X
*Associate professor, Azerbaijan National Academy of Sciences Bakihanov History Institute, Azerbaijan haciferide@hotmail.com*

***Atıf Künyesi | Citation Info***
Mustafazadə, T. ve Əliyeva, F. (2023). Rusiya Dövlət Hərb Arxivi Materialları: 1920-1922-ci İllərdə Azərbaycanda Hərbi Siyasi Durumu Öyrənmək Üçün Mənbə Kimi. *Akademik Tarih ve Düşünce Dergisi*, *10* (2), 43-61.

# Rusiya Dövlət Hərb Arxivi Materialları: 1920-1922-ci İllərdə Azərbaycanda Hərbi Siyasi Durumu Öyrənmək Üçün Mənbə Kimi

***Öz***

*Məqalədə Rusiya Dövlət Hərb Arxivindən toplanmış sənədlər əsasında 1920-1922-ci illərdə Azərbaycan SSR-də hərbi-siyasi durum tədqiq olunmuşdur. Sənədlər göstərir ki, 1920-ci il 28 aprel işğalından sonra uzun müddət respublikada hərbi-siyasi durum çox gərgin olmuşdur. "Hərbi kommunizm" siyasətinin amansız və repressiv metodları, hətta bu siyasətdən imtina olunub yeni iqtisadi siyasətə keçildikdən sonra da sərt cəza tədbirlərinin tətbiqi geniş kütlələr arasında haqlı narazılıq doğurur, sakinlər ayrı-ayrı şəxslərin ətrafında birləşərək yeni rejimə qarşı silahlı mübarizə aparırdılar. Qüvvələr nisbəti hədsiz qeyri-bərabər olduğundan sovet hakimiyyəti üsyanları əsasən yatırsa da hələ bir müddət ayrı-ayrı dəstələrin müqaviməti davam etmişdir.*

***Açar sözlər:*** *Rusiya Dövlət Hərb Arxivi, hərbi-siyasi durum, cəza tədbirləri, silahlı dəstələr*

# Russian State Military Archive Materials: A Source to Learn Military-Politic Situation in 1920-1922 in Azerbaijan

***Abstract***

*This article mainly highlightes the the military and political situation in the Azerbaijan SSR during 1920-1922 based on Russian State Military Archive documents. The documents show that the political and military situation in the republic was very tense for a long time after the occupation of April 28,1920. The ruthless and repressive methods of the "military communism" policy and even the implementation of harsh punitive measures after the switching to a new economic policy, by abstaining from this policy, aroused legitimate dissatisfaction among the masses. The residents united around individuals and fought an armed struggle against the new regime. Although the Soviet government suppressed the uprisings since the forces were extremely unequal, but (still) the resistance of individual groups continued for some time.*

***Keywords:*** *Russian State Military Archive, Military and political situation, Punitive measures, Armed groups*

## Giriş

Rusiya Dövlət Hərbi Arxivinin sənədlərini təhlil etməklə 1920-1922-ci illərdə Azərbaycan SSR-də hərbi-siyasi durumun əsas konturlarını cızmaq və Azərbaycan xalqının bolşevik Rusiyasının işğalına münasibətini müəyyənləşdirmək. XX əsrin 20-30-cu illəri ölkəmizin tarixinin ən faciəli və mürəkkəb səhifələrindən biri olmaqla yanaşı, həm də tariximizin ən çox saxtalaşdırmaya məruz qalan səhifələrindəndir. Sovet dövründə həmin illər Azərbaycanda Lenin təliminin təntənəsi, «xoşbəxt sosializm cəmiyyəti» quruculuğu kimi təqdim olunurdu. Halbuki, 20-30-cu illər tarixinə obyektiv yanaşdıqda həmin dövrün necə faciəli, məşəqqətli bir dövr olduğunu görürük. Adı çəkilən dövrü tədqiq etmək üçün isə arxiv sənədlərinin, o cümlədən Rusiya Dövlət Hərb Arxivinin sənədlərinin mühüm əhəmiyyəti vardır. Sənədlərin sayı hədsiz çox olduğundan bu məqalədə yalnız 1920-1922-ci illərə aid sənədlərdən istifadə olunmuşdur.

Rusiya Dövlət Hərb Arxivində mühafizə olunan sənədlər içərisində Azərbaycan SSR-in 1920-ci ildən 1940-cı ilədək tarixinin müxtəlif məsələlərinə işıq salan külli miqdarda sənədlərə rast gəlmək mümkündür. Bunlar başlıca olaraq 1920-ci ilin aprelində Şimali Azərbaycanı işğal edən XI Qırmızı Orduya (sonralar Əlahiddə Qafqaz Ordusuna çevrilmişdi), onun diviziyalarına, Azərbaycan Hərbi Komissarlığına aid sənədlərdir.

Məlumdur ki, 28 aprel işğalından sonra yeni elan edilmiş Sovet Azərbaycanı formal olaraq müstəqil sayılsa da, tədricən Sovet Rusiyasının müstəmləkəsinə çevrildi. Sovet hökuməti Azərbaycanın müstəqilliyini "imperialistlərdən və casuslardan qorumaq üçün" Rusiya ilə "qardaşlıq ittifaqına" girmək xəttini götürmüşdü (Qasımov, 1998). Bolşeviklərin Rusiyada yürütdüyü siyasət Azərbaycanda kobud formada və amansızlıqla həyata keçirilirdi.

Belə ki, 1918-ci ilin mayında Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi (ÜRMİK) və Xalq Təsərrüfatı Şurası kəndlilərdən ərzağın məcburi alınmasına keçərək ərzaq diktaturası tətbiq etmişdi. Taxılın artığını verməyən kəndlilərə və başqalarına qarşı amansız terror müharibəsi elan olunur, onlara 10 ildən az olmayaraq həbs cəzası verilir, əmlakı müsadirə olunur, özü həmişəlik kənd icmasından qovulurdu (Istoriya Rossii, 2005). Ərzağı toplamaq və itaət göstərməyənləri cəzalandırmaq üçün şəhərlərdə fəhlələrin silahlı ərzaq dəstələri, kəndlərdə isə yoxsul komitələri təşkil olundu.

Kənddə ərzaq sapalağı, sənaye istehsalının sürətlə milliləşdirilməsi və mərkəzləşdirilməsi, əmtəə-pul münasibətlərinin ləğvi, ümumi əmək mükəlləfiyyətinin tətbiqi kimi tədbirlər "hərbi kommunizm" adı almışdır. Bu ad kommunizm ünsürləri olan siyasətin müharibə dövründə həyata keçirilməsi ilə bağlı idi. Hərbi kommunizm dövründə real sosializmin inzibati-amirlik iqtisadi sisteminin əsasları formalaşdırıldı. Bu dövr 1921-ci ilin iqtisadi fəlakəti ilə bitdi. 1920-1921-ci illərdə Rusiyanın bir çox yerlərini, Ukraynanı aclıq bürümüşdü. Azərbaycanda da vəziyyət ürəkaçan deyildi.

Hərbi kommunizm dövründə mühüm sənaye mərkəzlərində fəhlələrlə bolşevik hakimiyyət orqanları arasında münasibətlər çox gərgin idi, 1921-ci ilin əvvəlində isə xüsusilə kəskinləşdi. Yanacaq çatışmazlığı üzündən dəmir yolları fasilələrlə işlədiyindən iri sənaye mərkəzlərinə lazım olan ərzağı çatdırmaq çətinləşdirdi. 1921-ci ilin əvvəllərində Moskvada və Petroqradda çörək qıtlığı hiss olunmağa başladı (Pavlyuchenkov, 2002). Daşınmaları çətinləşdirən bir amil Tambov vilayətində kəndli müharibəsinin geniş vüsət alması idi. Kəndlilər ərzaq sapalağından və ərzaq müsadirələrindən kəskin narazı idilər. Onlar deyirdilər ki, kəndlilər çar dövründə katorqada olanlardan daha çox zülmə məruz qalırlar (Pavlyuchenkov, 2002). Demək olar ki, əsasən kəndlilərdən təşkil olunmuş Qırmızı Ordu üsyançı kəndlilərə qarşı mübarizədə etibarsız idi. Həm də Vrangel darmadağın edildikdən sonra ordudan təxris olunma

başlamışdı. Evlərinə dönən əsgərlər kəndlərinin tamamilə yoxsulluq vəziyyətinə düşdüyünü görüb üsyançılara qoşulmağa başlamışdılar (Pavlyuchenkov, 2002).

"Hərbi kommunizm" siyasəti Azərbaycanda da tətbiq olunmağa başladı. Hərbi kommunizm siyasətinin əsas hissəsini ərzaq sapalağı təşkil edirdi. Gerçəklik, real həyat Azərbaycan SSR-in konkret özünəməxsus şəraitinin daim nəzərə alınmasını tələb etsə də, mal-qara və digər kənd təsərrüfatı məhsullarının tədarükü ilə əlaqədar qəzalarda müxtəlif ərzaq agentlikləri, tədarük komissiyaları və vəzifəli şəxslər tərəfindən sui-istifadə hallarına və qanunsuz hərəkətlərə yol verilir, özgəninkiləşdirilməli olmayan ev əşyalarının, pal-paltarın və sairənin zorla alınması halları baş verirdi (Pavlyuchenkov, 2002).

1920-ci ilin avqustun 26-da Azərbaycan İnqilab Komitəsi taxıl ticarəti inhisarı haqqında dekret verdi (ARPİİSSA). Taxıl məhsulları ilə yanaşı ən mühüm xammal növlərinin tədarükü üzərində də inhisar elan olunurdu. Mal-qara tədarükü isə "sapalaq qaydasınca, inhisarsız aparılmalı" idi. Ərzaq və xammala ümumrusiya qiymətlərinə uyğun möhkəm qiymətlər qoyulmalı idi (ARPİİSSA). Tədarük yalnız Xalq Ərzaq Komissarlığı tərəfindən aparılırdı. Bütün əsas sənaye məhsulları – parça, çay, şəkər, kibrit, dəmir, şüşə, kənd təsərrüfatı maşınları, avadanlığı, ağ neft və s. dövlət hakimiyyət orqanları tərəfindən bölüşdürülür, qalan məhsullar isə sərbəst dövriyyədə idi (Azərbaycan tarixi, 2000).

Azərbaycan İnqilab Komitəsinin 5 may 1920-ci il tarixli dekreti ilə xanların, bəylərin, mülkədarların, dini müəssisələrin torpaqları bütün canlı və cansız avadanlığı ilə birlikdə müsadirə olunur, torpaqlar bərabər istifadə əsasında dərhal kəndlilərə paylanırdı (Cəfərov, 2008). Mayın 15-də verilmiş dekretlə isə meşələr, sular və yeraltı sərvətlər milliləşdirildi (Cəfərov, 2008).

Azərbaycanın ağır vəziyyətinə baxmayaraq onun sərvəti daşınıb aparılırdı. Yalnız 1920-ci ilin aprelin 30-dan mayın 2-dək qısa müddətdə Bakıdan Həştərxana 1,3 mln. pud neft daşınmışdı. May-iyun ayları ərzində isə 36,2 mln pud neft və neft məhsulları aparılmışdı (Cəfərov, 2008).

Azərbaycan SSR əhalisi o zaman ölkə ərazisində yerləşən XI Qırmızı Ordunun da ehtiyaclarını ödəməli idi. Ordu hissələrinin bəzi komandirləri Azərbaycanın yerli hakimiyyət orqanları ilə əsla hesablaşmır, özbaşınalıqlar edirdilər. Ağır rekvizisiyalar (müsadirələr), şovinist ovqatlı zabitlərin təhqiramiz hərəkətləri, xalqın adət-ənənələrinin təhqir olunması əhalidə bir ümidsizlik yaratmışdı. Ordunu ərzaq, paltar və ayaqqabı ilə təmin etmək xalqın çiyninə düşən ağır bir yük idi.

Sülh dövründə hərbi kommunizm siyasətinin vüsət alması kəndlilərin, eləcə də fəhlələrin əksər hissəsinin güclü müqavimətinə rast gəldi. 1920-1921-ci illərdə Voronej,

Saratov, Penza quberniyalarında, Sibirdə, Donda və Ukraynada kəndlilər silaha sarılaraq ərzaq sapalağına qarşı çıxdılar. Onların sayı yüz minlərə çatırdı. Eser A.S.Antonovun başçılıq etdiyi Tambov-Voronej regionundakı üsyan xüsusilə inadlı və qanlı xarakterdə idi və 60 minə yaxın kəndlini əhatə etmişdi (Vdovin, 2014).

1921-ci ilin martında Kronştadt qarnizonu və Kronştadta qərarlaşmış Baltik donanması gəmilərində “Bütün hakimiyyət partiyalara yox, Sovetlərə!” və “Kommunistlərsiz Sovetlər!” şüarları altında qiyam da yeni rejim üçün olduqca təhlükəli idi (Vdovin, 2014).

Hakimiyyəti itirmək və Rusiyada inqilabın puça çıxması qorxusu qarşısında bolşevik partiyası daxili siyasi kursu dəyişməli oldu. 1921-ci ilin fevralında V. İ. Lenin ərzaq sapalağını ərzaq vergisi ilə əvəz etməklə bağlı kəndlilərin arzusunu yerinə yetirməyi təklif etdi (Vdovin, 2014).RK (b) P-nin 1921-ci il martın 8-16-da keçirilmiş X qurultayı “Sapalağı natural vergi ilə əvəz etmək haqqında” qətnamə qəbul etdi (Vdovin, 2014). Həmçinin azad ticarətə yol verildi (Istoriya Rossii)

ÜRMİK-in 21 mart 1921-ci il tarixli ərzaq sapalağının ərzaq vergisi ilə əvəz etmək haqqında dekreti yeni siyasətin ilk hüquqi aktı oldu (Istoriya Rossii). Qeyd edək ki, Azərbaycanda Yeni İqtisadi Siyasətə (YİS) keçid bir qədər özünəməxsus formada olmuşdur. Azərbaycan İnqilab Komitəsinin 17 may 1921-ci il tarixli dekreti ilə ərzaq inhisarı, yəni ərzaq sapalağı ləğv edilir və müəyyən çərçivədə ticarət azadlığına yol verilirdi. Azərbaycanda ərzaq vergisinin tətbiqi 1922-ci ilə kimi təxirə salınır, əvəzində kəndlilər “çanaq” adlı “könüllü vergi” verməli idilər (Azərbbaycan tarixi, 1973) Həqiqətdə çanaq məcburi qaydada alınırdı və hər təsərrüfata 20 girvənkə müəyyənləşdirilmişdi (Cəfərov, 2008).

Ərzaq vergisi əvvəlcə məhsulun 20%-i həcmində, daha sonra isə 10%-i həcmində alınırdı. 1924-cü ildə kənd təsərrüfatından toplanan bütün vergiləri vahid vergi ilə əvəz etdilər və onun həcmi kəndlinin gəlirinin 5%-i məbləğində müəyyənləşdirildi. Bu kəndlilərə öz təsərrüfatlarını səhmana salmağa imkan verdi. Vergilər kəndlilər arasında bərabər bölünmürdü. Məsələn, adi fərdi təsərrüfatdan ildə 18 rubl, qolçomaqdan isə 172 rubl alınırdı (Cəfərov, 2008). 1922-ci ilin oktyabrında torpaq icarəsinə və muzdlu əməyə icazə verilməsi (Cəfərov, 2008). YİS-in həyata keçirilməsində mühüm addım oldu.

Yeni rejimin sərt və amansız siyasəti, törədilən qəddarlıqlar Azərbaycanda da müqavimət doğurmaya bilməzdi. Azərbaycan SSR Hərbi-Dəniz komissarı Ç. İldırımın 30 aprel 1920-ci il tarixli, 4 saylı əmrində deyilirdi ki, aprelin 28-də Şıxov burnu, Zığ və Misaxdakı mövqe batareyalarının əsgərləri və zirehli qatarın əsgəri Məmməd Saleh oğlu öz hissələrindən qaçmışlar. Qaçanların tutulması, ASSR ordusunda bütün əsgərlərin fərariliyə görə

güllələnməyə qədər cəzalandırılacağının elan olunması əmr edilirdi (Prikaz po voyennomu vedomstvu Azerbaydzhanskoy Sovetskoy Respubliki, 30 Aprelya 1920).

Ç.İldırımın 9 may 1920-ci il tarixli 24 saylı əmrində isə deyilirdi ki, kimlərsə ölkədə sovet hakimiyyətinin möhkəmlənməsinə mane olmaq məqsədilə teleqraf tellərini (xüsusən Bakı-Xaçmaz xəttində) xarab edirlər. Belələrinin aşkar edilib hərbi tribunala verilməsi əmr olunurdu (Prikaz Voyenno-Morskogo Komissariata Azerbaydzhanskoy Sovetskoy Respubliki, 9 maya 1920).

1920-ci il iyulun 3-də təsdiq olunmuş İnqilabi hərbi tribunallar haqqında əsasnaməyə görə ordu Hərbi-İnqilabi Tribunalı (HİT), Cəbhə Hərbi İnqilabi Tribunalı və Respublika İnqilabi Hərbi Tribunalı təşkil olunurdu (Polozheniye o Revolyutsionnykh Voyennykh Tribunalakh Raboche-Krest'yanskoy Azerbaydzhanskoy Krasnoy Armii).

Ordu HİT-ı sədrdən, onun müavinindən, iki daimi üzv və onların müavinlərindən, Cəbhə HİT sədrdən, onun müavinindən iki daimi üzv və onların müavinlərindən, respublika HİT-ı sədr, onun müavini, iki daimi üzv və onların müavinlərindən ibarət təşkil olunurdu (Polozheniye o Revolyutsionnykh Voyennykh Tribunalakh Raboche-Krest'yanskoy Azerbaydzhanskoy Krasnoy Armii).Tribunallar töhmət, cərimə, əmlakın qismən və yaxud bütünlüklə müsadirə olunması, siyasi hüquqlardan bütünlüklə, yaxud qismən müddətsiz və ya müəyyən müddətə məhrum edilmə, azadlıqdan məhrum edilmə, hərbçilərin cərimə taborlarına göndərilməsi və nəhayət güllələnmə kimi cəzalar verə bilərdilər (Polozheniye o Revolyutsionnykh Voyennykh Tribunalakh Raboche-Krest'yanskoy Azerbaydzhanskoy Krasnoy Armii).

XI Ordu qərargahından 15 iyun 1920-ci il tarixdə vurulan teleqramda deyilirdi ki, Biləsuvar yaxınlığında "iranlı" Naftul bəyin komandanlıq etdiyi 1000 süvari, 600 piyada və 1 pulemyotdan ibarət dəstənin durması haqqında məlumat alınıb, bundan başqa yenə Biləsuvar yaxınlığında kapitan Əbdül bəyin başçılıq etdiyi (köməkçisi Bağı xan idi) 500 nəfərlik dəstə də dururdu (Telegramma komanduyushchemu XI Armii ot Komiteta i voyenkomu 28 divizii, 31.03.1921). İyunun 13-ü saat 12-də Göynük kəndi yaxınlığında döyüş olmuş, döyüşdən sonra üsyançılar Samux bölgəsində toplaşmış, sonra yarısı dağılıb evlərinə getmiş, digər yarısı isə Zaqatala üsyançılarına qoşulmaq üçün Zaqatala istiqamətində hərəkat etmişdi (Telegramma komanduyushchemu XI Armii ot Komiteta i voyenkomu 28 divizii, 31.03.1921).

Alınan əməliyyat məlumatına görə Aşağı və Yuxarı Zigam (yəqin ki, Zəyəm- T.M., F.Ə.) sakinləri gündüzlər kənd təsərrüfatı işləri ilə məşğul olur, gecələr silahlanaraq Nuxa (Şəki- T.M., F.Ə.) sakinlərinin əhval-ruhiyyəsini öyrənməyə gedirdilər (Telegramma

komanduyushchemu XI Armii. v.1). (yəqin ki, Şəkidə üsyan qalxardısa ona qoşulmaq niyyətilə).

Ordu qərargahına daxil olan digər bir əməliyyət məlumatında deyilirdi ki, 38-ci Qafqaz alayı iki topla Zaqatalaya daxil olub qalanı tutmuşdur. Biləcik yaxınlığında baş vermiş döyüşdə məğlub olub Zaqatalaya çəkilən 39-cu diviziyanın əsgərlərinin tərkisilah olunması haqqında məlumat verilmişdi. Zaqatalada inqilab komitəsinin üzvləri üsyançılar tərəfindən həbs olunmuşdu (Telegramma komanduyushchemu XI Armii. v.1).

Rusiya Dövlət Hərb Arxivində 195 saylı fondda Gürcüstan, Türkiyə, İran hərbi qüvvələri, habelə XI Qırmızı Ordunun arxasında fəaliyyət göstərən silahlı dəstələr haqqında xeyli məlumat verilir. 195 saylı fondun 3 saylı siyahı üzrə saxlanan 521 saylı qovluqda belə bir maraqlı sənəd var: “Боевое росписание Сил Грузии, Турции, Персии и тыла армии по данным на 25 декабря 1920 года” (Gürcüstan, Türkiyə, İran qüvvələrinin və ordunun arxa cəbhəsinin döyüş düzülüşü). Sənəddə Türkiyə və İran silahlı qüvvələrinin ümumi sayı, hərbi hissələrin yerləşdikləri mövqelərlə yanaşı XI Qırmızı Ordunun arxasında fəaliyyət göstərən partizan dəstələri haqqında da məlumat verilir. Bu isə öz növbəsində 28 aprel işğalından sonra Azərbaycanda uzun müddət müqavimət hərəkatının davam etdiyini göstərir. Həmin sənəddən həm də məlum olur ki, o zaman Mustafa Kamal paşanın başçılıq etdiyi türk ordusunun tərkibində 400 döyüşçüdən ibarət ayrıca azərbaycanlı süvari alayı vuruşurdu (Boyevoye raspisaniye sil Gruzii, Turtsii, Persii i tyla armii po dannym na 25 dekabrya 1920 goda).

Karyagin qəza inqilab komitəsinin 4 sentyabr 1920-ci ildə verdiyi məlumta görə 50 nəfərlik silahlı dəstə yerli milislə döyüşə girmişdi, həmin gün eyni zamanda bəy və xanlardan ibarət dəstə Qarabulaq kəndini mühasirəyə almış, Karyagin-Ağdam yolunda hərəkətin qarşısı kəsilmişdi (Razvod i opersvodki 1-y svodnoy Azerbaydzhanskoy divizii).

Azərbaycan atıcı diviziyası qərargahının əməliyyat məlumatına görə (8 sentyabr 1920-ci il) 1-ci alay 8-i sübh tezdən Lənkərandan cənubdakı kəndlərin əhalisini tərksilah etmək üçün yola düşmüşdü. 2-ci Qafqaz alayı isə Komçi mahalı bölgəsində silahlı dəstələri ləğv etməyə başlamışdı. Silahlı dəstələr güclü müqavimət göstərirdilər. Qırmızılardan 3 nəfər öldürülmüş, 2 nəfər isə yaralanmışdı. Dəstə üzvləri İran tərəfinə keçməyə məcbur olmuşdular (Boyevoye raspisaniye sil Gruzii, Turtsii, Persii i tyla armii po dannym na 25 dekabrya 1920 goda).

Rusiya Dövlət Hərbi Arxivində o zaman Azərbaycan SSR ərazisində baş vermiş üsyanlar haqqında xeyli məlumat var. Sənədlərin birində deyilir ki, Nuru paşanın başçılığı ilə Qarabağda başlayan üsyan Şuşa, Ağdam və Bərdəni əhatə etmiş, XI Ordunun 2-ci süvari korpusunun və 32-ci atıcı diviziyasının hissələri üsyanın üçüncü günündə – iyunun 15-də onu yatırmışdılar (RGVA, f.7940, op.2, d.80, ll.49-51). Qarabağ üsyanı ilə demək olar eyni

zamanda Zaqatala dairəsində də üsyan başlamış və üsyan Şəki bölgələrinin də bir hissəsini əhatə etmişdi. Əhalinin silahı təhvil verməsi barədə əmrin verilməsi çıxışa təkan oldu (RGVA, f.7940, op.2, d.5, ll. 31-32). Bu əmr həm də ona görə böyük narazılıqla qarşılandı ki, həmin ərəfədə gürcülər əhali arasında şaiyə yayırdılar ki, guya Zaqatala dairəsinin Gürcüstana verməsələr, Gürcüstan buranı zor gücü ilə tutacaqdır (RGVA, f.7940, op.2, d.5, ll. 31-32).

Molla Hafiz Əfəndinin başçılıq etdiyi min nəfərdən çox adam və onlara qoşulmuş Azərbaycan ordusunun qarovul taborunun bütün zabitləri iyunun 9-da Zaqatala qalasını, teleqrafı tutdular və inqilab komitəsinin üzvlərini həbs etməyə başladılar.

Qırmızı hərbçilərinin özlərinin etiraf etdiyi kimi Zaqatala üsyanı çox amansızlıqla yatırılmışdır (RGVA, f.7940, op.2, d.5, ll. 31-32).

Sovet hakimiyyətinin ilk aylarında Azərbaycanın İran və Ermənistanla, qismən də Gürcüstanla sərhəd rayonlarında bir sıra silahlı dəstələr var idi ki, onlar yeni hakimiyyəti tanımaq istəmirdilər: Ramazanovun, Fəttanın və Əhmədin dəstələri. Lakin həmin dəstələrin bir-birləri ilə düşmənçilik etmələri onların qüvvələrini zəiflədirdi (RGVA,f.195, op.3, d. 851, l.3).

XI Qırmızı ordu komandanlığının 25 mart 1921-ci il tarixli təlimatında etiraf olunurdu ki, kommunistlərin keçirdikləri uğursuz təcrübələr, tabor komandirlərinin səhvləri, torpaq siyasətindəki əyintilər, kəndlilərin dini mərasimlərinə qayğı ilə yanaşılmaması onların etirazlarına, bütün Azərbaycanı bürüyən üsyanlara səbəb olmuşdur (RGVA,f.195, op.3, d. 851, l 275).

AXC generalı H.Səlimov Naxçıvan və Qaradonlu əhalisi arasında sovet hakimiyyətinə qarşı təbliğat kampaniyasına başlamışdı. Azərbaycan SSR-in İran sərhəddi boyunca bütün rayonlarında – Qaryagin (Cəbrayıl) rayonu, Cavad qəzası, Muğan düzünün bir hissəsi və Lənkəran qəzasının bütün dağlıq hissəsində fəal narazıların sayı daha çox idi. Təkcə Lənkəran qəzasında 3 min nəfərədək silahlı var idi (RGVA,f.195, op.3, d. 851, l.259).

1920-ci ilin dekabrın 25-nə olan kəşfiyyat məlumatına görə Azərbaycan ərazisində Qırmızı Ordunun arxasında aşağıdakı silahlı xalq dəstələri fəaliyyət göstərirdi; Şamxor qəzasında Bakanamazın 100 nəfərlik piyadalardan ibarət dəstəsi, Şuşa qəzasında Sultan bəy Sultanovun dəstəsi (sayı müəyyənləşdirilməmişdi), Zəngəzur qəzasında Şamilin 200 nəfərlik piyadalardan ibarət dəstəsi, Karyagin qəzasında Cümşüd bəy Mahmudlunun 1000 nəfərlik dəstəsi, Sadiq xan Şirvanlı və Ayaz xanın 300 süngüsü, 2 qılıncı və 3 pulemyotu olan dəstəsi, Lənkəran qəzasında Lənkəran İnqilabi Ordusunun komandanı Camal paşanın tabeçiliyində – Pensərdə Qulam Tağıyev və Şahverənin 1000 nəfərlik dəstəsi, Qulaməli bəyin 2 pulemyotu olan 500 nəfərlik dəstəsi, Bədəlan-Boradigah kəndlərində türk zabiti Mehmedin 500 nəfərlik, İsa Musabəyovun 450 nəfərlik (300 süngü və 150 qılınc), San-Qam Sifidorun 2 pülemyotu, 2

yüngül və 2 ağır topu olan 375 nəfərlik (350 süngü və 25 qılınc), Mir Sadiq Basalonun 85 nəfərlik (60 süngü və 25 qılınc), yenə Pensərdə İbrahimxəlilin 560 nəfərlik (460 süngü və 80 qılınc) dəstələri fəaliyyət göstərirdi (Boyevoye raspisaniye sil Gruzii, Turtsii,Persii i tyla armii po dannym na 25 dekabrya 1920 goda). Qeyd olunurdu ki, Camal paşaya üstəlik İrandan 500 nəfər silahlı da yardıma gəlmişdir. Daha sonra bildirilirdi ki, Camal paşa Astaradan Pensərə 3-ü milliyyətcə rus olan 6 zabit və 1000 nəfər silahlı şəxslə gəlmişdir. Camal paşa Ərdəbildə mövqe tutan Ələkbərlə əlaqə saxlayır və buradan əlavə qüvvələr alırdı. Ərdəbildə 20 top vardı ki, onlardan cəmisi 4-ü yararlı idi (Boyevoye raspisaniye sil Gruzii, Turtsii,Persii i tyla armii po dannym na 25 dekabrya 1920 goda)

15 mart 1921-ci il tarixdə Şuşa İnqilab Komitəsinin sədr müavini Taycuyevin və komitə üzvü Bəhlulun Azərbaycan SSR Daxili işlər komissarlığına vurduqları teleqramda deyilirdi ki, Qubadlıdan azərbaycanlı əhalinin nümayəndələri gəlib bildirmişlər ki, Zəngəzur daşnakları Gerd kəndini mühasirəyə alaraq oradakı bütün tanınmış müsəlmanları öldürmüş, qalanlarını tamamilə qarət edib kənddən qovmuşlar. Biçarə və heç nəyi qalmayan 300 nəfər lüt-üryan adam digər müsəlman kəndlərinə qaçmışdır, hər gün aclıqdan 2-3 nəfər ölür, vəziyyət acınacaqlıdır və təcili yardım tələb edir (RGVA, f.195, op.3, d. 851 (Narkomvoyenmor ASSR), l.10).

Yerlərdə müqavimət o qədər güclü idi ki, bir sıra hallarda Qırmızı Ordunun dəstələri komandanlığın razılığı olmadan mövqelərini atıb qaçırdılar. Məsələn, 1921-ci ilin aprelin 15-də alınan məlumata görə Güləli mövqeyində yerli silahlı dəstələrin ləğvi üzrə əməliyyat başa çatmadığı halda orada fəaliyyət göstərən süvari bölüyü, süvari yüzlüyü və xüsusi təyinatlı dəstə briqada komandirinin razılığı olmadığı halda Tovuz stansiyasına çəkilmişdir. Briqada komandirinin tələbinə baxmayaraq Gəncə və Tovuz hərbi komissarları yardım göndərməmişlər (RGVA, f.195, op.3, d. 851 (Narkomvoyenmor ASSR), l.10).

Uzun və qanlı mübarizədən sonra qırmızı ordu komandirləri bir çox silahlı dəstə başçılarını ayrı-ayrılıqda silahı yerə qoymağa razı sala bildilər. Qafqaz diviziyasının qərargah rəisinin 31 mart 1921-ci il tarixli teleqramından məlum olur ki, Burovarda mövqe tutmuş İsrafil bəylə onun silahı təslim etməsi barədə razılıq əldə edilmişdir. Həmçinin Qulam Tağıyevlə də belə razılıq əldə edilmişdi (Telegramma komanduyushchemu XI Armii ot nashtaba i voyenkoma 28 divizii.31.-3.1921g). Teleqramda o da bildirilirdi ki, Qulam Tağıyev də silahı yerə qoymaq barədə razılığa gəlmişdir. Yollar açılandan sonra sovet qoşunları İçaraya qədər irəliləyə və Şahverənin Züvanddakı dəstəsini məhv edə biləcək (Telegramma komanduyushchemu XI Armii ot nashtaba i voyenkoma 28 divizii.31.-3.1921g).

Silahlı dəstələrin bəzilərinin silahı yerə qoymalarına baxmayaraq respublikada müqavimət hərəkatı hələ də davam edirdi.

Azərbaycan atıcı diviziyası qərargahının əməliyyat məlumatında deyilirdi ki, 24 avqust 1921-ci ildə Bəhram xanın 100 nəfərlik dəstəsi Şirinsudakı posta hücum etmişdi. Əldə olunan məlumata görə (27 iyula) Bəhram xanın 600 süvari və piyadadan ibarət, bir topu və 3 pulemyotu olan dəstəsi Şirinsudan 35 verst cənub-şərqdə Təzəkənddə mövqe tutmuşdu.

02.08.1921-ci il tarixli teleqramda qeyd olunurdu ki, Arazın o tayında Şahsevən qəsəbəsi yanında Karyagin rayonunun fərari əsgərləri və milislərindən ibarət dəstə (ehtimal ki, Ayaz xanın dəstəsindən) görünmüşdür. Yenə əldə edilən məlumatlara görə Quba qəzasında və həmsərhəd Dağıstan ərazisində kəndlilər arasında Nuxa və Rustov rayonları arasındakı ərazidə fəaliyyət göstərən dəstələrə birləşmək üçün hazırlıq gedir və sovet hakimiyyətinin əleyhinə təbliğat aparılır. Üzvlərinin sayı 1000 nəfərə çatan dəstə Cerfi kəndi yaxınlığında müşahidə olunmuşdu. Qalacı-Komlu rayonunda fəaliyyət göstərən Hüseyn əfəndinin dəstəsi Quba qəzasına keçmişdi (RGVA,f.918, op.2, d. 10, l.29).

Qafqaz Ordusu komandanlığından 2-ci Qafqaz atıcı diviziyası komandirinə verilən 22 noyabr 1922-ci il tarixli əmrdə Zəngəzur qəzasının Sofyan Xanlıq rayonunda alaylıların silahı dəstəsinin dərhal məhv edilməsi tələb olunurdu (Nash Arm. – KOMDIVU 2 strelkovyy Kavkazskoy). Operativ məlumatlara görə alaylıların silahlı dəstəsinin 150 daimi üzvü var, lakin lazım gələrsə bu rəqəmi 300 nəfərə çatdıra bilərlər (V.R.I.D. Nach.operschast'.kom.diva).

Zaqafqaziya Fövqəladə Komissiyasının (Zak.FK) nəzdindəki qoşunların qərargahının Qafqaz ordusu qərargahına göndərdiyi 4 noyabr 1922-ci il tarixli əmrdə deyilirdi ki, “quldurluğun ləğvi”ni Zaq. FK-nin qoşunlarına tapşırmaq planlaşdırılmışdır, buna görə də tələb olunurdu ki, ƏQO qərargahı “quldurluğa” qarşı mübarizə üçün ayırdığı dəstələr və hissələr haqqında təcili məlumat versin (Predsedatel' Zakavkazskoy Chrezvychaynoy Komissii Mogilevskiy).

1922-ci ilin oktyabrın 29-da Nehrəm stansiyasına göndərilmiş 25 hərbçidən ibarət kəşfiyyat dəstəsi Naxçıvan şəhərindən 10 verst cənubda Qızıl Vəng rayonunda 15 nəfərlik silahlı dəstə ilə rastlaşmış, dəstə üzvləri təslim olmaqdan imtina edərək atəş açmışdılar. Kəşfiyyat dəstəsinin rəisi tağım komandiri Uxayev öldürülmüş, silahlı dəstə isə aradan çıxmışdı (Kratkiy otchot o banditizme v rayone Otd. Kavkazskoy Armii za noyabr' 1922 g).

Oktyabrın 20-də Cəbrayıldan 20 verst qərbdə yerləşən Qazan Zəmi, Maşannı və Tamaslı kəndlərinin sakinləri ərzaq vergisi toplanmasına etiraz əlaməti olaraq üsyan qaldırmış, alaylı tayfası da onlara fəal dəstək vermişdir. Üsyanı yatırmaq üçün oktyabrın 21-də Karyagindən 70 tüfəngçi, 6 pulemyotdan ibarət sərhəd dəstəsi Xanlıq kəndinə yönəlmiş, buradan ayın 24-də dəstənin bir hissəsi şimala-Padar kəndinə və daha sonra Başarat kəndinə yönəlmişdir, dəstənin qalan hissəsi isə Xanlıq-Veysəlli nahiyyəsini nəzarət altına almışdır. Maşannı və Qazanzəmi

kəndləri yanında atışmadan sonra 9 nəfər itki verən üsyançılar Tumaslı kəndinə çəkilmişdi. Sonda 20 nəfər itki verən üsyançılar Arazı keçərək İran ərazisinə daxil olmuşdular. 120 üsyançını əsir alınmışdı (Kratkiy otchet o banditizme..,v.264 a.ü.). Oktyabrın 30-da 25 nəfərdən ibarət atlı silahlı dəstə Kərxulu-Qarədərə (Cəbrayıldan 10 verst cənub-şərqdə) rayonunda ot arabalarını mühafizə edən əskərlərə hücum etmişdi.

Hesabat dövründə Biləsuvar-Şirinsu-Edişi rayonunda 3 pulemyot və mərmisiz bir yüngül topa malik şahsevənlərin Hacıbəyli oymağından olan 1200 nəfər Vəli bəyin, Bəhram xan və başqa bir neçə xan və bəyin başçılığı ilə müxtəlif yerlərə dəfələrlə basqınlar etmişdi (Kratkiy otchet o banditizme..,v.264 a.ü.).

Hesabat dövründə Nəcəfqulu xanın dəstəsi və ona birləşmiş qardaşı Qulam bəyin dəstəsi (cəmi 1200 süvari və piyada) İranın Lənqan-Qəreni sərhəd rayonunda fəaliyyətini gücləndirmiş, hər gün 10 nəfərlik dəstələrlə silah və patron ələ keçirmək məqsədilə sərhədçi dəstələrinə basqınlar etmişdilər. Bütün basqınlar dəf olunsa da noyabrın 14-də 50 nəfərlik dəstə Marayurd zastavasına basqın edərək 5 nəfər sərhədçini əsir götürmüşdü. Noyabrın 15-də əsgərlər postu geri almış, 16-na keçən gecə isə 100 nəfər yenidən postu tutaraq 8 sərhədçini əsir götürmüşdülər (Kratkiy otchet o banditizme..,v.264 a.ü.).

Əhməd xan Rəsulovun 180 nəfərlik dəstəsi Minəvər-Nəmin rayonunda yollarda pusqular quraraq sərhədçi dəstələrinə və postlara basqınlar edirdi (Kratkiy otchet o banditizme..,v.264 a.ü.). 1922-ci il dekabrın 19-da alınmış əməliyyat məlumatına görə sayı bilinməyən silahlı dəstə Gəncə rayonunun Alabaşlı stansiyasından 3 verst aralıda hakimiyyət mühafizəçələri ilə atışmaya başlamışdılar (Prikaz komanduyushchego 2-y Kavkazskoy Divizii ot 19 dekabrya 1922 g.; RGVA, f.25873, op.1, d.1075, l.344.). Dəstəyə qarşı mübarizə üçün hərbi qüvvələr və onları daşımaq üçün xüsusi vaqon ayrılmışdı (Razgovor pryamoy telefonnoy linii ot st.Gyandzha. 19 dekabrya 1922 g.RGVA, f.25873, op.1, d. 1075, l.345).

RDHA-nın 25873 saylı fondundakı sənədlər içərisində 1-ci siyahısı üzrə saxlanan 1082 saylı qovluqdakı sənədləri xüsusi qeyd etmək lazımdır. Qeyd edək ki, əvvəllər həmin qovluq «Banditizm və Zaqafqaziyada onunla mübarizə» adlı 216 saylı fondda 3-ü siyahı üzrə 347 saylı qovluq idi, sonralar 216 saylı fond ləğv olunub 25873 saylı fonda birləşdirilmişdir.

Qovluqdakı sənədlərdən aydın olur ki, İranın bir jandarm alayının komandirləri polkovnik Lahuti ilə Ağazadə (Təbrizdə) üsyan qaldırıb məğlub olduqdan sonra 1922-ci ilin fevralında Azərbaycan SSR-in Naxçıvan bölgəsinin ərazisinə keçmiş, bu zaman sərhəddə duran sovet hərbiçiləri onların atlarını, silahlarını və digər əmlakının əllərindən almışdılar (Obrashc-heniye Nachal'nika Shtaba Pugavkina Predsedatelyu Soyuznogo Soveta Zakavkazskikh Respublik, tov.S.Mikhaylovu. 30 avgusta 1922).

ZSSRFİ (Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqı) İttifaq Şurasının sədri N.Nərimanov 1922-ci il iyulun 12-də Əlahiddə Qafqaz Ordusunun (ƏQO) komandanına yazırdı ki, həmin ilin fevral ayında Təbrizdə üsyan qaldıran jandarmlar şəhər şah qoşunları tərəfindən tutulduqdan sonra Culfadan Naxçıvan ərazisinə keçmişdilər. Culfada xüsusi postun rəisi onların 83 atını, 103 tüfəngini, müxtəlif markalı 25 revolverini, 1 pulemyotunu, 15 min tüfəng patronunu və 1600 revolver patronunu almışdı. N.Nərimanov tələb edirdi ki, alınmış silah-sursat sahiblərinə qaytarılsın (Obrashcheniye Predsedatelya Soyuznogo Soveta komanduyushchemu Otdel'noy Kavkazskoy Armiyey 12 iyulya 1922 g).

Şamxor (indiki Şəmkir) qəza komissarı 1922-ci il fevralın 6-da xəbər verirdi ki, qəzada siyasi vəziyyət mürəkkəbləşir, Şəmkirçayın üzərindəki körpüyə basqın gözlənilir. Əlahiddə Qafqaz Ordusunun komandanı bununla bağlı qəza komissarının sərəncamına əlavə hərbi qüvvələr göndərilməsi barədə göstəriş vermişdi (I.O.Nachal'nik shtaba OKA – komanduyushchemu I Korpusa OKA. Telegramma 06.02.1922 g).

1922-ci ilin oktyabrında Cəbrayıl rayonunda Başarat və Muğanlı kəndləri arasında sovet silahlı dəstələri ilə üsyançı dəstəsi arasında silahlı toqquşma baş vermiş, 150 üsyançı əsir götürülmüşdü. Yenə həmin vaxtlarda Araz sahilində Horadiz yaxınlığında da qaçaqlarla güclü silahlı toqquşma olmuşdu (Pochta-Telegramma. Shtab 2 – Kavkazskoy Strelkovoy imeni «STEPINA» Divizii. OPERSTR – chast' – nachal'niku shtaba OKA, 19 noyabrya 1922 g.).

2-ci atıcı diviziyası əməliyyat hissəsi rəisi İsayevin ƏQO əməliyyat bölgəsi rəisinə vurduğu 20.11.1992-ci il tarixli teleqramda məlumat verilirdi ki, oktyabrın 24-də sərhəd dəstəsi yerli milislərlə birlikdə Cəbrayıldan 28 verst aralıda yerləşən Padar kəndinə daxil olduqdan sonra üsyançı dəstəsini mühasirəyə almaq üçün buradan Başarat kəndinə hərəkət etmişdir. Kazan-Zanlı və Tumaslı kəndləri yanında sayı təxminən 400 nəfərə çatan üsyançılarla baş verən atışmalarda 10-18 nəfər arasında üsyançı öldürülmüş və üsyançılar Arazın sağ tərəfinə keçməyinə məcbur olmuşdular (Pochta-Telegramma. Nach.operotdela shtabu OKA).

Zaqafqaziya Federasiyası İttifaq Şurasının 26 iyun 1922-ci il tarixli iclasında Zəngəzurda “banditizm”lə mübarizə məsələsi müzakirə olunmuş və bu bölgədə “banditizm”i ləğv etmək üçün ƏQO Hərbi-İnqilab Şurasına müraciət etmək qərara alınmışdı (Federativnyy Soyuz Sotsialisticheskikh Sovetskikh Respublik Zakavkaz'ya. Vypiska Prezidiuma – iz protokola zasedaniya Soyuznogo Soveta. 26 iyunya 1922 g).

Zəngəzur qəza rəisinin ZSFSR (Zaqafqaziya Sovet Sosialist Federativ Respublikası) İttifaq Şurasına 22.06.1922-ci il tarixli teleqramında deyilirdi ki, yazın gəlməsi ilə Əsəd bəyin dəstəsi fəallaşmış, hakimiyyətin zəifliyindən istifadə edərək Naxçıvan qəzası ərazisində sərbəst

dolaşır, Naxçıvan-Zəngəzur yolundakı əlaqəni demək olar ki, kəsmişdir (Soyuznomu Sovetu ZSFSR, Myasnikyanu ot nachal'nika Zangezurskogo uyezda. Telegramma 22 iyunya 1922 g).

ƏQO-nun müvəqqəti komandanı Puqaçovun, Hərbi-İnqilabi Şura üzvünün və qərargah rəisi müavinin ƏQO komandanlığının tabeçiliyindəki hissələrə göndərdikləri 10 sentyabr 1921-ci il tarixli sərəncamda ordunun nəzarəti altındakı ərazidə "banditizm" in güclənərək Cənubi Qafqaz respublikalarında sosializm quruculuğu üçün təhlükəyə çevrildiyi qeyd olunur, "banditizm"ə qarşı qətiyyətlə mübarizə aparmaq üçün region ərazisinin xüsusi bölmələrə ayrılaraq hər bir bölmədə xüsusi silahlı dəstələr təşkil olunması əmr edilirdi. Tapşırılırdı ki, üsyançılarla mübarizə aparmaqla yanaşı sakinlərin içərisindən "Əksinqilabi ünsürlərin", "banditlərin köməkçilərinin", fərarilərin və onları gizlədənlərin üzə çıxarılıb həbs olunması istiqamətində də iş görülsün (Telegramma komandira komissara divizii Todorski komanduyushchemu OKA Yegorovu. 05.09.1922 g. RGVA, f.25873, op.1, d.1082, l.113).

Partizan dəstələrinin fəaliyyəti o qədər güclənmişdi ki, Kirov, Qarayev, Musabəyov və Sviridovdan ibarət müşavirə qərara almışdı ki, əksinqilabçıları izləyərkən sovet qoşunları İran ərazisinə daxil olmaqdan belə çəkinməsinlər (Telegramma komandira komissara divizii Todorski komanduyushchemu OKA Yegorovu. 05.09.1922 g. RGVA, f.25873, op.1, d.1082, l.113).

Qafqaz atıcı diviziyası komandanlığının ƏQO Hərbi-İnqilab Şurasına 25.07.1922-ci il tarixli raportunda deyilirdi ki, son vaxtlar Azərbaycan SSR-in sərhədyanı zonası, xüsusilə də Lənkəran qəzası Əhməd Rəsulovun, Nəcəfqulu xanın və Məmməd Əsədin başçılıq etdiyi müxtəlif Şahsevən bəyləri, xanların mütəşşəkil silahlı dəstələrinin aramsız basqınlarına məruz qalır. Onların hərəkətləri o qədər mütəşəkkil və cəsarətlidir ki, sərhəd postlarının müqavimətini asanlıqla qıraraq sərhəddən xeyli aralı rayonlara soxulur və böyük zərər yetirirlər (Ot komandira i komicsara 2-oy Kavkazskoy motostrelkovoy divizii Voyenno-Revolyutsionnomu Sovetu OKA. 25.07.1922 g).

03.01.1922-ci il tarixində Kürdüstan qəza icraiyyə komitəsinin sədri Xaso Sultanov öz kiçik hərbi qüvvəsi ilə Basarkeçərə gəlmiş və 100 nəfər süvaridən ibarət yardım istəyir. X.Sultanov xəbər verirdi ki, bu rayonun sakinləri sovet hakimiyyətinə silahlı müqavimət göstərirlər və onu tanımırlar, 200-ə qədər kəndin əhalisi indiyədək tərksilah olunmayıb, sakinlərin hamısı revolverlər və tüfənglərlə silahlanmışlar (Vr.i.o.d. Nashtaba OKA – Komkoru I Kavkazskogo. Telegramma 03.01.1922 g).

10.02.1922-ci ildə alınan kəşfiyyat məlumatlarına görə 1921-ci ildə Qırmızı Orduya qarşı əməliyyatlar aparan Sultan bəy Sultanov yenidən dəstə təşkil edir, onun adamları Şuşa və onun ətrafında tələsik silah və patron alırlar. Sultanovun qərargahı Şuşadan 3 verst aralı

Çurmanda yerləşirdi (Doklal nachal'nika Vr.i.o.d. Bobrova i voyenkomissara komanduyushchemu OKA o bor'be s banditizmom. 10.02.1922 g).

Kəşfiyyat idarəsinin ƏQO-nun qərargah rəisinə 08.03.1922-ci il tarixli məruzəsində deyilirdi ki, "bandit"lər hazırda öz mütəşəkkil qüvvələrini tamamilə saxlayırlar, fəal hərəkətlər hələlik Hacıbəyli tayfasının üzvləri tərəfindən müşahidə olunur. Məlumata görə sərhədyanı zonada 1922-ci il martın 1-nə 5700 süngüsü və qılıncı, 14 pulemyotu və 5 topu olan 13 silahlı dəstə mövcud idi. Nəzərə almaq lazımdır ki, yerli əhali hesabına dəstələrin sayı və üzvləri arta bilər. Sənəd tərtibçilərinin fikrincə yerli İran hakimiyyət orqanları bu dəstələrin fəaliyyətinə ona görə mane olmurdular ki, əvvəlla bunun üçün kifayət qədər gücləri yox idi, ikincisi, sərhəd mühafizəsini əvəz edən bu dəstələrin mövcudluğunda maraqlı idilər (Doklad nachal'nika razvedupravleniya OKA. 08.03.1922 g).

Silahlı dəstələrin tərkibində keçmiş pristav Sultan bəy Qulubəyov, sabiq iri mülkədar Əsəd xan Tomışanski, (Talışinski - T.M., F.Ə.) keçmiş qəza hərbi rəisi Adil bəy, Lənkəranın keçmiş qəza rəisinin (sənəddə yanlış olaraq qubernator yazılıb –T.M., F.Ə.) köməkçisi Həsi Quliyev və başqa görkəmli əksinqilabçıların olmasına görə yazın gəlməsi ilə Lənkəran silahlı dəstələrinin siyasi məqsədlər güdən mütəşəkkil fəallığının güclənməsi gözlənilir (Doklad nachal'nika razvedupravleniya OKA. 08.03.1922 g).

ƏQO komandanı Qekkerin, qərargah rəisi Eliavanın və qərargah rəisi Puqaçovun Azərb. SSR Hərbi-İnqilabi Şurasına 10.08.1921-ci il tarixli müraciətində deyilirdi ki, son vaxtlarda İran ərazisindən silahlı dəstələrin Azərbaycan SSR ərazisinə basqınları ardıcıl xarakter almışdır. Ordu hissələri müdafiə mövqeləri tutsalar da müsbət nəticələr yoxdur (Obrashcheniye komanduyushchego OKA Gekkera i nashtaba Pugacheva Voyenno-Revolyutsionnomu Sovetu Az.SSR, 10.08.1921 g).

Qafqaz korpusunun qərargah rəisi və hərbi komissarı Voronkovun fikrincə 1921-ci il tarixli noyabrın əvvəllərində respublikanın cənub bölgəsində Qara bəyin, Səməd bəyin, Əlixanın və başqalarının dəstələri ara-sıra basqınlar etsələr də, soyuqların yaxınlaşması, şah hakimiyyət orqanlarının, ilk növbədə Ərdəbil valisinin mənfi münasibəti üzündən sovet hakimiyyəti ilə barışmaq üçün yollar axtarırlar. Vartaşen (indiki Oğuz – T.M., F.Ə.) rayonunda fəaliyyət göstərən Hüseyn Əfəndiyevin dəstəsi Qutqaşen (indiki Qəbələ -T.M., F.Ə.) rayonu ərazisinə keçmişdir. 20 nəfərdən ibarət dəstənin 3 pulemyotu da vardı. Dəstədə Azərbaycan türklərinin çoxluq təşkil etdiyi bildirilirdi (Nashtarmu i voyenkom OKA Voronkovu ot nachoperotdela. Telegramma 10.11.1921 g).

1921-ci il avqustun sonundakı əməliyyat məlumatına görə Nəcəfqulu xanın, Şahverən xanın, Ata xanın və başqalarının başçılıq etdiyi dəstələr Lənkəran qəzasının sərhədyanı zolağını

və Vaşarrud ilə Təngərud çayları arasındakı ərazini tutmuşdular. Onlar Zuvand və Vaqo Pensər ərazisini tutmaq niyyətindədirlər. Eyni zamanda İran Astarasında mövqe tutmuş Rəşid xanın dəstəsi Azərbaycan SSR Astarasını tutmalı idi (Ot Kavkazskogo korpusa Todorski, voyennyy komissariat Sviridor i Nashtaba Voronkova komanduyushchemu OKA. Telegramma. 30.08.1921 g).

ƏQO komandanlığı mütəşəkkil silahlı dəstələrə qarşı mübarizənin əsasnaməsini hazırlamışdı. Həmin əsasnamədə üsyançılardan bir hissəsinin qarətçi ünsürlərindən ibarət oduğu deyilsə də, dəstələrin əhəmiyyətli hissəsinin sovet hakimiyyətinə rəğbət bəsləməyən silahlı ünsürlərdən - əksinqilabçılardan, yerli sakinlərdən və gəlmə ağqvardiyaçılardan təşkil olunmuş dəstələr olduğu etiraf olunurdu (Osnovnyye polozheniya dlya bor'by s banditizmom v rayone Otdel'noy Kavkazskoy Armii. 23.11.1921 g).

Dəstələrin əsas taktikası belə idi: gizli və sürətli hərəkət etmək; qəfil basqın etmək; uğur qazanılmadığı halda dərhal döyüş meydanını tərk edib dağlara və meşələrə çəkilmək. Bu cür hərəkətlərin uğurla yerinə yetirilməsi üçün dəstə üzvləri adətən cəsur, igid, möhkəm iradəli şıxslərdən və bəzən də itirməyə heç nəyi olmayan evsizlərdən təşkil olunurdu. Əsasnamədə silahlı dəstələrlə mübarizə “kiçik müharibə” adlandırılırdı (Osnovnyye polozheniya dlya bor'by s banditizmom v rayone Otdel'noy Kavkazskoy Armii. 23.11.1921 g).

## Sonuç

RDHA-nın sənədlərinin təhlili 1920-1922-ci illərdə Azərbaycan SSR-də hərbi-siyasi durumun çox kəskin olduğunu, ölkə ərazisində yeni rejimə qarşı müqavimət göstərən tərkibində onlarla, bəzən isə yüzlərlə adamın vuruşduğu onlarla silahlı dəstələrin fəaliyyət göstərdiyini sübut edir. Bu mənbələrdəki məlumatlardan həm də məlum olur ki, hökumət qüvvələrinin əsas silahlı dəstələri zərərsizləşdirməsinə baxmayaraq, hələ bir müddət kiçik-kiçik dəstələr müqaviməti davam etdirmişlər.

## Kaynaklar

Qasımov, M. (1998). *Xarici dövlətlər və Azərbaycan*. Bakı.

Berdinskikhi V.A. (Ed). (2005). *Istoriya Rossii. Uchebnoye posobiye dlya VUZov. Kirov Konstanta*. Akademicheskiy proyekt, 203-204.

Pavlyuchenkov, S.A. (2002). *Rossiya. Nepovskaya* (rukovoditel' avtorskogo kollektiva), D.A.Amatzhalova, V.P.Bulgakov i dr.). Moskva-Novyy khronograf,16-17.

ARPİİSSA (Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi), f.1,s.74, iş 36, v.34.

*Azərbaycan tarixi,* (2000).*VI.*(aprel 1920-1941). Elm.

Cəfərov, C. (2008). *Azərbaycan sovet kəndi XX əsrin 20-ci illərinin sonu-30-cu illərdə*. T.e.d. dis-sı. Bakı.

Vdovin, A.I. (2014). *Istoriya SSSR. Ot Lenina do Gorbacheva. Izd-vo vtoroye, dopolnennoye i pererabotan¬noye*. Moskva.

*Azərbbaycan tarixi. (*1973). *III. III cild, I hissə*, Elm.

*Prikaz po voyennomu vedomstvu Azerbaydzhanskoy Sovetskoy Respubliki (Po shtabu Krasnoy Armii). g.Baku. (*30 aprelya 1920 goda). RGVA,f.25846,op.1,d.1,ch.3,l.3

*Prikaz Voyenno-Morskogo Komissariata Azerbaydzhanskoy Sovetskoy Respubliki, g.Baku, №24,* (9 maya 1920 g). RGVA, f.25846, op.1,d.1,ch.3,l.17

*Polozheniye o Revolyutsionnykh Voyennykh Tribunalakh Raboche-Krest'yanskoy Azerbaydzhanskoy Krasnoy Armii,* RGVA, f. 25846, op.1, d.1, ch.5, l .229ob

*Telegramma komanduyushchemu XI Armii ot Komiteta i voyenkomu 28 divizii*. (31.03.1921 g). RGVA,f.195, op.3, d.444, l. 1.

*Boyevoye raspisaniye sil Gruzii, Turtsii, Persii i tyla armii po dannym na 25 dekabrya 1920 goda*. RGVA,f.195,op.3,d.521, l.11.

*Razvod i opersvodki 1-y svodnoy Azerbaydzhanskoy divizii*. RGVA, f.918, op.2, d.8, l.190.

RGVA, f.7940, op.2, d.80, ll.49-51.
RGVA, f.7940, op.2, d.5, ll. 31-32.

RGVA,f.195, op.3, d. 851, l.3.

*Boyevoye raspisaniye sil Gruzii, Turtsii, Persii i tyla armii po dannym na 25 dekabrya 1920 goda*, RGVA, f.195, op.3, d.521, ll.15,16.

RGVA, f.195, op.3, d. 851 (Narkomvoyenmor ASSR), l.10
*Telegramma komanduyushchemu XI Armii ot nashtaba i voyenkoma 28 divizii.* (31.-3.1921g). RGVA, f.195, op. 3, d.850 (obshchaya perepiska i razgovory), ll.2-3. i

RGVA,f.918, op.2, d. 10, l.29.

*Nash Arm. – KOMDIVU 2 strelkovyy Kavkazskoy.* Telegramma (22 noyabrya 1922 g).RGVA,f.25873,op.1,d.1075,l.267

*V.R.I.D. Nach.operschast'.kom.diva – Shtab 2-y Kavkazskoy strelkovoy divizii.* Operativno-strelkovaya chast'. RGVA, f.25873, op.1, d.1075, l.268

*Predsedatel' Zakavkazskoy Chrezvychaynoy Komissii Mogilevskiy. – Nach. Shtaba Otdel'noy Kavkazskoy Armii.* (4 oktyabrya 1922 goda); Telegramma. RGVA, f.25873, op.1, d.1075, l.73

*Kratkiy otchot o banditizme v rayone Otd. Kavkazskoy Armii za noyabr' 1922 g.*; RGVA, f.25873, op.1, d. 1075, l.26

Kratkiy otchet o banditizme..,v.264 a.ü.

*Prikaz komanduyushchego 2-y Kavkazskoy Divizii ot (*19 dekabrya 1922 g).; RGVA, f.25873, op.1, d.1075, l.344.

*Razgovor pryamoy telefonnoy linii ot st.Gyandzha.* (19 dekabrya 1922 g). RGVA, f.25873, op.1, d. 1075, l.345
*Obrashcheniye Nachal'nika Shtaba Pugavkina Predsedatelyu Soyuznogo Soveta Zakavkazskikh Respublik, tov.S.Mikhaylovu*. (30 avgusta 1922 g).; RGVA, f.25873, op.1, d.1082, l.1ob.

*Obrashcheniye Predsedatelya Soyuznogo Soveta komanduyushchemu Otdel'noy Kavkazskoy Armiyey* (12 iyulya 1922 g).; RGVA, f.25873, op.1, d.1082, l.6.

*I.O.Nachal'nik shtaba OKA – komanduyushchemu I Korpusa OKA.* (Telegramma 06.02.1922 g). RGVA, f.25873, op.1, d.1082, l.23.

*Pochta-Telegramma. Shtab 2 – Kavkazskoy Strelkovoy imeni «STEPINA» Divizii. OPERSTR – chast' – nachal'niku shtaba OKA,* (19 noyabrya 1922 g).; RGVA, f.25873, op.1, d.1082, l.28.

*Pochta-Telegramma. Nach.operotdela shtabu OKA. Ot komandira operchasti Isayeva 2 strelkovogo divizii OKA,* (20.11.1922 g).; RGVA, f. 25873, op.1, d.1072, l.30.

*Federativnyy Soyuz Sotsialisticheskikh Sovetskikh Respublik Zakavkaz'ya. Vypiska Prezidiuma – iz protokola zasedaniya Soyuznogo Soveta.* (26 iyunya 1922 g).; RGVA, f.25873, op.1, d.1082, l.52

*Soyuznomu Sovetu ZSFSR, Myasnikyanu ot nachal'nika Zangezurskogo uyezda*. (Telegramma 22 iyunya 1922 g). RGVA, f.25873, op.1, d.1082, ll.53-54.

*Telegramma komandira komissara divizii Todorski komanduyushchemu OKA Yegorovu*. (05.09.1922 g). RGVA, f.25873, op.1, d.1082, l.113.

*Ot komandira i komicsara 2-oy Kavkazskoy motostrelkovoy divizii Voyenno-Revolyutsionnomu Sovetu OKA*. (25.07.1922 g).; RGVA, f.25873, op.1, d.1082, l.123.

*Vr.i.o.d. Nashtaba OKA – Komkoru I Kavkazskogo.* (Telegramma 03.01.1922 g).; RGVA, f.25873, op.1, d.1082, l.132.

*Doklal nachal'nika Vr.i.o.d. Bobrova i voyenkomissara komanduyushchemu OKA o bor'be s banditizmom.* (10.02.1922 g).; RGVA, f.25873, op.1, d.1082, l.136 i ob.

*Doklad nachal'nika razvedupravleniya OKA.* (08.03.1922 g).; RGVA, f.25873, op.1, d.1082, l.139.

*Obrashcheniye komanduyushchego OKA Gekkera i nashtaba Pugacheva Voyenno-Revolyutsionnomu Sovetu Az.SSR,* (10.08.1921 g).RGVA, f.25873, op.1, d.1082, l.138.

*Nashtarmu i voyenkom OKA Voronkovu ot nachoperotdela.* (Telegramma 10.11.1921 g). RGVA, f.25873, op.1, d.1082, l.159.

*Ot Kavkazskogo korpusa Todorski, voyennyy komissariat Sviridor i Nashtaba Voronkova komanduyushchemu OKA.* (Telegramma. 30.08.1921 g). RGVA, f. 25873, op.1, d.1082, ll.164-165.

*Osnovnyye polozheniya dlya bor'by s banditizmom v rayone Otdel'noy Kavkazskoy Armii.* (23.11.1921 g). RGVA, f.25873, op.1, d.1082, l.168.